## POÇT MARKASI




***Fətəli xan Xoyski və Stanislav Patek 100 illik tarixə həsr olunmuş poçt markasında***

2020-ci ildə Polşa Poçtunun (Poczta Polska) qərargah binasında Polşa ilə Azərbaycan arasında diplomatik əlaqələrin yaranmasının 100 illiyinə həsr edilmiş xüsusi poçt markalarının təqdimatı olub.

Xüsusi poçt markasının üzərində həmin dövrdə Polşanın Xarici İşlər naziri olmuş Stanislav Patekin və Azərbaycanın Xarici İşlər naziri olan Fətəli xan Xoyskinin şəkli, həmçinin Azərbaycanın və Polşanın dövlət gerbləri həkk edilib.

Xüsusi poçt markalarının təqdimatı zamanı Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov çıxış edərək iki ölkə arasındakı qədim tarixə dayanan münasibətlərdən danışıb.

Polşa Poçtunun vitse-prezidenti Ancey Bocionı isə öz çıxışında ərsəyə gətirdikləri xüsusi poçt markalarının iki ölkənin tarixinin bir hissəsi olduğuna görə qürur hissi duyduqlarını söyləyib.

Xüsusi poçt markaları Polşa ərazisində 180 min tirajla dövriyyəyə buraxılıb.

***

Bu gün dünyada poçt markaları bir tərəfdən məktubların göndərmə haqqının miqdarını ifadə edirsə, digər tərəfdən kolleksiyaçıların ən çox məşğul olduğu sahələrdən biridir. Poçt markaları həm də dövlətin suverenliyinin atributlarından hesab edilir, ona görə də oradakı təsvirlərə xüsusi önəm verilir. Çünki bu təsvirlər həm də bir dövlətin, onun mədəniyyətinin, tarixinin, idmanının və s. tanıdılması deməkdir.

1997-ci ildə Azərbaycanda Fətəli xan Xoyskiyə həsr olunmuş poçt markası buraxılıb. Bu, onun xatirəsinə hörmət əlaməti olaraq hazırlanan markalardan biridir.




Buraxılış ili: 25.03.1997

Qiyməti: 250 manat

Ölçüsü: 48,3×31,8

Tirajı: 40.000